# Tender təklifi elektron təminatına dair (satınalan təşkilat üçün)
# TƏLİMAT

12.01.2023-cü il tarixindən sonra dövlət satınalmalarının vahid internet portalında (bundan sonra – Portal) elan edilən elektron satınalma vasitəsilə keçirilmiş açıq tenderlərdə iştirak üçün təqdim ediləcək tender təklifi təminatları (bundan sonra – Təminat) yalnız elektron qaydada qəbul ediləcəkdir.
Müsabiqə yaradılması prosesində hər hansı dəyişiklik müəyyən edilməsə də, qiymətləndirimə prosesində malgöndərən (podratçı) tərəfindən əlavə edilən təminat elektron formatda olacaqdır.




Açılmış pəncərədə Təminata dair aşağıdakı məlumatlar öz əksini tapır:

- Emitentin adı - Bankın adı
- Satınalan təşkilatın adı - Benefisiar təşkilat
- ADOC faylı - Təminatın elektron nüsxəsi. Keçidin özünü və ya “yüklə” işarəsini sıxmaqla faylı endirmək mümkündür. ADOC faylı açmaq üçün müvafiq proqram təminatı (ASANDOC) kompüterə quraşdırılmalıdır.
- Verilmə tarixi - Təminatın verilmə tarixi
- Qüvvədə olma müddəti – Təminatın etibarlı olmasının son tarixi
- Məbləğ - Təminatın məbləği
- Əlavə qeyd xanası malgöndərən (podratçı) tərəfindən əlavə məlumatın təqdim edilməsi üçün nəzərdə tutulur. Doldurulduğu halda məlumatlar əks olunacaqdır.

### Təminatın statusları

Təminatların etibarlıq müddətinin və məbləğinin “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunluğu statusu sistem tərəfindən avtomatik hesablanır və müvafiq olaraq nəticə “Uyğundur” və ya “Uyğun deyil” olaraq qeyd edilir.

**Təminatın etibarlıq müddətinin sistem tərəfindən yoxlanması**

- Etibarlılıq müddəti tender zərflərinin açıldığı gündən sonra azı 30 bank günü (*bərabər və ya böyükdürsə*) təşkil etdikdə - “Uyğundur statusu əks olunacaq

| | | | |
|---|---|---|---|
| Verilmə tarixi | 08.12.2022 | | |
| Qüvvədə olma müddəti | 01.05.2025 | Uyğundur | |

- Etibarlılıq müddəti müəyyən edilmiş müddətdən az olduqda “Uyğun deyil” statusu əks olunacaq

| | | | |
|---|---|---|---|
| Verilmə tarixi | 08.12.2022 | | |
| Qüvvədə olma müddəti | 01.05.2025 | Uyğun deyil | |

**Təminat məbləğinin sistem tərəfindən yoxlanması**

- Təminatın məbləği “Tender təklifinin qiyməti”nin (cəmi qiymət + hesablanmış cəmi ƏDV, varsa) 1%-nə *bərabər və ya böyükdürsə* - “Uyğundur” statusu əks olunacaq

| | | | |
|---|---|---|---|
| Verilmə tarixi | 08.12.2022 | | |
| Qüvvədə olma müddəti | 01.05.2025 | Uyğun deyil | |
| Məbləğ | 1.000.000 AZN | Uyğundur | |

- Təminatın məbləği “Tender təklifinin qiyməti”nin (cəmi qiymət + hesablanmış cəmi ƏDV, varsa) 1%- dən *azdırsa* - “Uyğun deyil” statusu əks olunacaq

| | | | |
|---|---|---|---|
| Verilmə tarixi | 08.12.2022 | | |
| Qüvvədə olma müddəti | 01.05.2025 | Uyğundur | |
| Məbləğ | 1.000.000 AZN | Uyğun deyil | |